BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4* *Sosial-siyasi elmlər seriyası* *2015*

## HÜQUQ

**UOT 341.2; 341.231.14**

# BEYNƏLXALQ İNSAN HÜQUQLARI STANDARTLARININ İMPLEMENTASİYASI: BEYNƏLXALQ VƏ MİLLİ TƏDBİRLƏR

**N.H.MEHDİYEV**
***Bakı Dövlət Universiteti***
***novruz_mehdiyev@bk.ru***

*Məqalədə qeyd edilir ki, insan hüquqları və əsas azadlıqlarına hörmət prinsipinin təşəkkül tapması insan hüquqları sahəsində müqavilələrin bütöv kompleksinin qəbul edilməsi ilə əlaqədardır. Bir çox müqavilələrin ayrılmaz tərkib hissəsi onların həyata keçirilməsinə təsir göstərən tədbirlərin görülməsidir. Xüsusilə qeyd olunur ki, hərtərəfli işlənib hazırlanmış müqavilələrin həyata keçirilmə tədbirləri olmadan insan hüquqları və əsas azadlıqlarına hörmət prinsipinin yerinə yetirilməsinə yönəldilmiş effektiv beynəlxalq əməkdaşlıq mümkün deyil.*

*İnsan hüquqları sahəsində müqavilələrin həyata keçirilmə tədbirlərinin nəzəri təhlili konkret beynəlxalq prosedurların obyektiv qiymətləndirilməsi, onların işlənib hazırlanması zamanı mövqelərin müəyyənləşdirilməsi üçün lazımdır. Bu cür təhlil baxılan beynəlxalq tədbirlərin təcrübi zəruriliyinə və səmərəliliyinə düzgün yanaşmanı mümkün edir.*

**Açar sözlər:** insan hüquqlarının implementasiyası, insan hüquqları sahəsində beynəlxalq və milli tədbirlər, İnsan Hüquqları Bəyannaməsi, İnsan Hüquqları Komitəsi, beynəlxalq insan hüquqları standartları, insan hüquqlarına hörmət, insan hüquqları sahəsində beynəlxalq nəzarət mexanizmləri və s.

İnsan hüquqları müxtəlif iqtisadi və siyasi sistemlərin, ideologiya və mədəniyyətlərin mövcud olduğu müasir dünyamızda insanları və cəmiyyətləri birləşdirən ən əsas meyardır. İnsan hüquqları ideyası məhdud və inkişafetmə təsəvvürlərdən müasir dövrədək təkamül yolu keçərək nəticədə sosial və hüquqi statusundan asılı olmayaraq bütün insanlara aid olan vahid prinsip və normalar konsepsiyasına çevrilmişdir. Bütün dövlətlərin konstitusiyasının əsasını təşkil etmişdir [1, 10].

Müasir dövrdə insan hüquqları ideyası ictimai inkişaf prosesinə istiqamət və təkan verən mühüm ideyalardan biri kimi qiymətləndirilir. Çünki insan hüquqları insanların sosial fəaliyyəti, onların ictimai münasibətləri, fərdi yaşayış xüsusiyyətləri ilə üzvi surətdə bağlıdır. Onlar insanların qarşılıqlı əlaqəsi, bu

əlaqələrin nizamlanması, onların hərəkət və fəaliyyətində yaranan mübahisələrin qarşısının alınması, dövlət və cəmiyyətin normal fəaliyyətinin normativ forması kimi özünü göstərir. Yaşamaq hüququ, şərəf və ləyaqətin toxunulmazlığı hüququ, vicdan azadlığı, söz və fikir azadlığı, şəxsin siyasi proseslərdə iştirak etməsi və s. bu kimi hüquqlar sivil cəmiyyətdə insan həyatının qurulmasının vacib şərtləri sayılır. Bu hüquqların mahiyyətini və onların cəmiyyətdə yerini müəyyənləşdirmək üçün onlara mütləq konkret tarixi baxımdan yanaşmaq lazımdır. Müasir dövrümüzə qədər gəlib çatan insan hüquqları uzun tarixi inkişaf yolu keçmişdir. İnsan hüquqlarının inkişafının həlledici mərhələləri XVII-XVIII əsr burjua demokratik inqilabları dövrünə təsadüf etsə də, onların inkişaf tarixinin kökləri daha qədim dövrlərə təsadüf edir. Hesab olunur ki, insanın bir fərd kimi cəmiyyət və dövlət tərəfindən pozula bilməyən hüquqlara və azadlıqlara malik olması ideyası insan cəmiyyətinin yaranması ilə eyni zamanda meydana çıxmışdır.

Antik Roma və Yunan fəlsəfi məktəbləri insan hüquqları ideyasının fəlsəfi əsaslarının formalaşmasına əhəmiyyətli təsir göstərmişdir. Bu fəlsəfi məktəblərdə insan azadlığının və şəxsi həyatının ictimai mənafelərdən, dövlətin siyasi maraqlarından üstün tutulması aparıcı istiqamətlərdən biri kimi nəzərdən keçirilir. Bu fəlsəfi fikirlər əsasən Sokratın, Platonun, Epikürün, Aristotelin və s. antik dövr mütəfəkkirlərinin əsərlərində öz əksini tapmışdır. İnsan hüquqları ilə bağlı məsələlər sonrakı dövrdə Roma mütəfəkkirlərinin əsərlərində inkişaf etdirilmişdi. Dinin hakim kəsildiyi orta əsrlər dövründə insan hüquqları ideyası ilahi nemət, ilahi qanunlar kimi qiymətləndirilirdi. Qərbdə isə orta əsrlər dövründə insan hüquqlarının dövlətdaxili hüquqla nizamlanması praktikasına rast gəlinir. Bu qayda əsasən İngiltərənin praktikasında öz əksini tapmışdır. Bu bir sıra aktlarda əks olunmuşdur. Bunlar aşağıdakılardır:

1) 1215-ci il Böyük azadlıq xartiyası (Maqna çarta) – burada kral hakimiyyətinin səlahiyyətləri barədə müddəalar əks olunub.

2) 1628-ci il Hüquqlar haqqında petisiyada kralın üzərinə müvafiq öhdəliklər qoyulur və şəxsləri kral idarəçiliyindən qoruyurdu.

3) 1679-cu il Habeas korpus aktı – insan hüquqlarının inkişafında söz azadlığı, parlamenti seçmək və s. məsələlərə həsr edilmişdir.

İnsan hüquqları termini isə beynəlxalq siyasi leksikonda müstəqillik uğrunda Amerika müharibəsindən və Böyük Fransa inqilabından sonra meydana gəldi. Məhz bu dövrdən sonra dövlətdaxili sənədlərdə - Hüquqlar haqqında Bill, ABŞ konstitusiyası və s. insan və vətəndaş hüquqlarından danışılırdı. Bəzi ədəbiyyatlarda bu sənədlərdə adları çəkilən hüquqları I nəsil insan və vətəndaş hüquqları adlandırırlar. Bura əsasən yaşamaq hüququ, köləliyin ləğvi və s. hüquqlar aiddir.

Bundan sonra insan hüquqlarının inkişafında II mərhələ başladı ki, bunu da bəzi hüquq ədəbiyyatında II nəsil insan hüquqları adlandırırlar. İnsan hüquqlarının bu nəsli sosial və iqtisadi hüquqlardan ibarətdir. Bu hüquqlar müəyyən mənada sosialist düşüncə tərzi nətıcəsində yaranmışdı. Bura əmək hüququ, sosial təhlükəsizlik hüququ, təhsil hüququ və s. daxildir. Bu hüquqlar daha çox

formasız xarakter daşıyır. II Dünya müharibəsindən sonra bu hüquqlar bir sıra beynəlxalq müqavilələrdə (1961-ci il Avropa sosial xartiyasında, İqtisadi və sosial, mədəni hüquqlar haqqında 1966-cı il Beynəlxalq Paktında və s.) ayrıca təsbit olundu.

III nəsil insan hüquqlarının yaranması son dövrün inkişaf xüsusiyyətləri ilə izah edilir. Bu izaha görə indi obyektiv olaraq elə hüquqlar meydana gəlmişdir ki, onlar ayrılıqda fərdə və ya fərdlər qrupuna yox, bütövlükdə məcmuya, xalqa məxsusdur. Məsələn, inkişaf hüququ, sülh hüququ,sağlam ətraf mühitdə yaşamaq hüququ və s. Bu hüquqlar kollektiv hüquqlar və ya "həmrəylik hüquqları" adlanır. Lakin göstərilən hüquqlar hələ tam formalaşmamışdır və onlar dəqiq normativ məzmuna malik deyildir.

İnsan hüquqlarnın tarıxi inkişafından danışarkən nəzəriyyələrə də toxunmaq lazımdır. İnsan hüquqlarının mahiyyətinə dair nəzəriyyələrə təbii hüquq nəzəriyyəsi, pozitiv nəzəriyyə, realist və universal nəzəriyyələri misal göstərmək olar.

Təbii hüquq nəzəriyyəsinin tarixi kökləri qədim və antik dövrün mütəfəkkirlərinin əsərlərinə gedib çıxır. Bu nəzəriyyədə insan hüquqlarına təbii, sanki insan şüurundan və yaxud ilahi iradədən və ya insanın öz təbiətindən yaranan hüquq kimi baxılırdı. Bu nəzəriyyənin məqsədi dövlət orqanlarının fəaliyyətini insan hüquq və azadlıqlarının həcminə uyğun olaraq məhdudlaşdırmaqdır.

Pozitiv nəzəriyyənin tərəfdarları (C.Ostin, H.Kelzen, A.Markel) isə təbii hüquq nəzəriyyəsinin əleyhinə idilər. Pozitivistlər hesab edirlər ki insan hüquqları, onun həcmi, məzmunu dövlət tərəfindən müəyyənləşdirilir. İnsan hüquqlarının mənbəyini ümumməcburi qaydaları yaradan və cəmiyyət üzərində duran dövlətdə görürdülər. Pozitiv nəzəriyyənin mahiyyəti qüvvədə olan qanunvericiliyi sistemləşdirməkdir.

İnsan hüquqlarına dair digər bir nəzəriyyə realist nəzəriyyədir. Bu nəzəriyyənin tərəfdarları göstərirlər ki, insan hüquqları mənəviyyata aid olduğu üçün mədəni konteksdən çıxış etməlidir. Bu nəzəriyyəyə görə dünyaya gəldiyi gündən fərdin yalnız davranışı deyil, həm də düşüncələri də cəmiyyətin mədəniyyətinin təsiri ilə formalaşır.

BMT çərçivəsində 1948-ci il Ümümdünya insan hüquqları Bəyannaməsini, Fakultativ protokolla birlikdə 1966-cı ildə imzalanmağa açıq olan mülki və siyasi hüquqlar haqda Paktları əhatə edən insan huquqları haqda Billin işlənib hazırlanması və qəbul edilməsi insan hüquqları üzrə beynəlxalq normaların inkişafında tamamilə yeni mərhələ açdı [10, 13]. Söhbət artıq hər hansı ayrıca hüquqlardan, hər hansı hüquqi şəxslər kateqoriyasından deyil, ictimai həyatın bütün sahələrində bütün-fərdlərin hüquqlarından gedir. BMT Baş Assambleyasının qətnaməsi şəklində qəbul edilmiş Ümümdünya Bəyannaməsi (buna görə də hüquqi məcburi sənəd deyil), həmçinin Paktlar praktiki olaraq insan hüquq və azadlıqlarının bütün spektrini əhatə etsə də, bu sahədə beynəlxalq normayaratma davam etmiş və indiyədək davam edir.

Bəyannamədə və ya Paktlarda yalnız ümumi formada verilmiş bir sıra hüquq və azadlıqlar xüsusi müqavilələrdə geniş şəkildə təsbit olunmuşdur. Belə

ki, mülki və siyasi hüquqlar haqda Paktın VII maddəsi işgəncələri və qəddar, qeyri-insani, insan ləyaqətini alçaldan rəftar təfərrüatı ilə bu cinayətin nə tərkibini, nə də onunla mübarizə formalarını açmadan qadağan edirsə, işgəncələr və digər qəddar, qeyri-insani və ləyaqəti alçaldan rəftar növlərinə və cəzalar əleyhinə 1984-cü il Konvensiyası isgəncənin anlayışını verməklə yanaşı, bu cinayətlərlə mübarizə məqsədilə bir sıra təşkilati tədbirlər nəzərdə tutur. Məsələn, mülki və siyasi hüquqlar haqda Paktda ehtiva olunmuş bir sıra əlamətlər (cins, irq, milli mənsubiyyət, din, siyasi və digər əqidə və s.) üzrə insanların ayrı-seçkiliyini qadağan edən ümumi normalardan basqa, məsələn, təhsil (1960-cı ildə UNESCO qəbul etmişdir), əmək və məşğulluq (1958-cı ildə BƏT-in Baş Konfransında qəbul edilmişdir) sahəsində ayrı-seçkilik əleyhinə Konvensiyalar, Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqda 1979-cu ildə BMT Baş Assambleyasının qəbul etdiyi Konvensiya işlənib hazırlanmış və hazırda qüvvədədir.

İnsan hüquqları haqda yazan bir çox müəlliflər onları üç nəslə bölür [15, 361]: birinci nəsil-burjua inqilablarının bəyan etdiyi mülki və siyasi hüquqlar: ikinci nəsil sosial-iqtisadi hüquqları üçüncü nəsil-başlıca olaraq, üçüncü dünya ölkələrinin bəyan etdiyi kollektiv hüquqlar.

Bütün hüquq və azadlıqların göstərilən nəsillərə bu cür bölünməsi əlbəttə ki, mütləq deyil və onu bəzi şərtlərlə qəbul etmək olar. Həqiqətən, burjua inqilabları dövründə insan hüquqları haqda ilk bəyamnamələr (1689-cu il ingilis hüquqları haqda Bill, 1789-cu il fransız insan və vətandaş hüquqları haqda Bəyamnaməsi, ABŞ Konstitusiyasında birinci on düzəliş kimi qəbul edilmiş hüquqlar haqda Bill) meydana çıxarkən söhbət yalnız mülki və siyasi hüquqlardan gedirdi.

İkinci nəsil, yəni sosial-iqtisadi hüquqlar zəhmətkeşlərin kapitalist cəmiyyətində öz vəziyyətlərini yaxsılaşdırmaq ücün mübarizəsi nəticəsində meydana gəlmişdir. Z.Henkin belə bir nəticəyə gəlir ki, «insan hüquqları uğrunda beynəlxalq hərəkat XVIII əsrin fərdin muxtariyyəti və azadlığı haqda ideyalardan yaranmış və XIX və XX əsrin sosializm və ümumi rifah dövləti ideyaları ilə tamamlanmışdır» [9, 48].

İnsan hüquqları tez-tez kollektiv və ya həmrəy hüquqlar adlandırılan üçüncü nəsil müstəmləkə imperiyalarının yerində yaranmış yeni dövlətlərdən çox əvvəl meydana çıxmağa başlasa da, ücüncü dünya dövlətlərinin irəli sürdüyü bir sıra tələblər (inkişaf hüququ) ehtiva edir. Sağlam ətraf mühitə olan hüquq və yaxud sülh hüququ müxtəlif dövlətlərin xalq kütlələrinin tələbləri kimi təsəkkül tapmışdır [8, 30].

Əgər birinci iki nəslə aid olan hüquq və azadlıqlar hər bir fərdə məxsusdursa, üçüncü nəsil hüquqlarını insan və xalqların hüququ adlandırmaq olar. Belə ki, sülh huququ, sağlam ətraf mühit hüququ və ya iqtisadi və sosial inkişaf hüququ hər bir insana olduğu kimi, hər bir xalqa və deyə bilərik ki, bütövlükdə bütün bəşəriyyətə məxsusdur [8, 31].

Ücüncü nəsil hüquqları həm də onunla fərqlənir ki, beynəlxalq mü-

qavilələrdə təsbit edilmiş (hər iki Paktın I maddəsi) və bütün dövlətlər və alimlər tərəfindən beynəlxalq hüququn ümümtanınmış norması kimi tanınan özünü təyinetmə hüququndan başqa bu kateqoriyadan olan digər hüquqlar hüquqi cəhətdən məcburi normalar kimi formalaşma mərhələsindədir. Onlar yalnız beynəlxalq təşkilatların qətnamələrində təsbil olunmuşdur. Onların müddəaları çox zaman qeyri-müəyyən olur və yalnız tədricən insan və xalqların hüquqları kimi onların normativ məzmunu dəqiqləşdirilir [15, 370].

Eyni zamanda qeyd etməmək olmaz ki, bu hüquqların bəzi aspektləri də lege ferenda olsa da beynəlxalq hüquqda müəyyən edilmiş və eynimənalı şəkildə möhkəmləndirilmişdir.

Hal-hazırda fərdin hüquq və azadlıqları sahəsində bütün beynəlxalq normaları beynəlxalq standartlar adlandırmaq qəbul edilmişdir. Bu termin beynəlxalq müqavilələrin qaydaları, beynəlxalq təşkilatların, Helsinki yekun aktı kimi siyasi sazişlərin qətnamələri, Vyana, Kopenhagen görüşlərinin sənədləri, beynəlxalq adətlər kimi müxtəlif cinsli normaları əhatə edir.

Beynəlxalq hüququn sahələrinin əksəriyyəti adət hüququ normalarından təşəkkül tapmağa başlanmışdır və yalnız sonralar kodifikasiya olunan konvensiyalar adət normalarına müqavilə təbiəti vermişdir.

İnsan hüquqları sahəsində beynəlxalq normalar isə praktiki olaraq, ancaq yazılı hüquq - müqavilə normaları və qaydaları şəklində meydana gəlməyə başladı.

Göstərdiyimiz kimi, beynəlxalq hüquqda insan hüquqları və əsas azadlıqlarına hörmət prinsipinin təşəkkül tapması insan hüquqları sahəsində müqavilələrin bütöv kompleksinin qəbul edilməsi ilə əlaqədardır. Bir çox müqavilələrin ayrılmaz tərkib hissəsi onların həyata keçirilməsinə təsir göstərən tədbirlərin görülməsidir. Hərtərəfli işlənib hazırlanmış həyata keçirilmə tədbirləri olmadan insan hüquqları və əsas azadlıqlarına hörmət prinsipinin yerinə yetirilməsinə yönəldilmiş effektiv beynəlxalq əməkdaşlıq mümkün deyil

İnsan hüquqları sahəsində müqavilələrin həyata keçirilmə tədbirlərinin nəzəri təhlili konkret beynəlxalq prosedurların, obyekiv qiymətləndirilməsi, onların işlənib hazırlanması zamanı mövqelərin müəyyənləşdirilməsi üçün lazımdır. Bü cür təhlil baxılan beynəlxalq tədbirlərin praktiki zəruriliyinə və səmərəliliyinə düzgün yanaşmanı mümkün edir.

İkinci dünya müharibəsindən dərhal sonra müəyyən implementasiya, yəni müqavilədə təsbit edilmiş hüquqların həyata keçirilməsinə yönəlmiş tədbirləri nəzərdə tutan insan hüquqları haqda beynəlxalq billin bir neçə layihəsi meydana çıxdı. «İmplementasiya» termini ilə insan hüquqları haqda müqavilələrdə yalnız beynəlxalq səviyyədə həyata keçirlən tədbirlər göstərilirdi. Müxtəlif izahlı lüğətlərdə implementation müqavilənin, sazişin yerinə yetirilməsi, həyata keçirilməsi, praktiki icra olunması və konkret tədbirlər vasitəsilə yerinə yetirilmənin təmin edilməsi kimi verilir.

İmplementasiya nəzəriyyəsinin əsasları Lauterpaxt H. və B.Q.Manovun əsərlərində işlənmişdir. Lauterpaxt H. o nöqteyi-nəzərdən çıxış edir ki, dövlət

suverenliyi məhdudlaşdırılmadan, onlar tərəfindən suveren səlahiyyətlərini məhdudlaşdıran bəzi güzəştlərə gedilmədən insan hüquqlarının beynəlxalq müdafiəsi mümkün deyil. Beləliklə, verilmiş halda implementasiya nəzəriyyəsi ilk növbədə dövlət suverenliyinə qəsd edir. İnsan hüquqlarının beynəlxalq müdafiəsinə bu cür yanaşma Lauterpaxtın dövləti hüquqlar haqda billin həyata keçirilməsində əsas orqan kimi tanınması ilə yüngülləşir [12, 313]. Lakin düzgün olan bu müddəa Lauterpaxta BMT orqanlarrının fəal iştirakı ilə insan hüquqları sahəsində hüquqi öhdəliklərin implementasiyasının BMT Nizamnaməsinin başlıca məqsədlərindən biri olması nəticəsinə gəlməsinə mane olmur [12, 315]. Bu halda Lauterpaxt H. nəzərə alır ki, müəyyən öhdəlikləri yalnız dövlətin özü həyata keçirə bilər.

Lauterpaxtın implementasiya nəzəriyyəsinin təməl daşını fərdi şikayət vermək hüququ təşkil edir. Bu hüquqa o, həm vətəndaşlıq dövləti, həm də bütün beynəlxalq birliyə münasibətdə ayrılmaz hüquq kimi baxır. Fərdi şikayətlərə son dərəcə böyük diqqət onunla izah olunur ki, qərb müəllifləri fərd və dövlətin maraqlarının bir-birinə əks olmasından çıxış edirlər. Ona görə də, implementasiya nəzəriyyəsi ilk növbədə fərdlərin onun öz dövlətindən müdafiəsinə yönəlmişdir.

Lauterpaxt əsas insan hüquqlarının pozuntularına məhkəmədə baxılmasıın təkid edir. O, hesab edir ki, məhkəmə məhkəmə qərarlarına və dövlət orqanlarının qanunvericilik aktlarına yenidən baxa bilər [12, 315]. Belə yanasma açıq-aşkar dövlət suverenliyi prinsipinə ziddir.

B.Q.Manov dövlətdaxili və beynəlxalq implementasiyanı fərqləndirir. Onun fikrincə beynəlxalq implementasiya öz növbəsində məhkəmə və kvazi məhkəmə xarakteri daşıyır. Beynəlxalq implementasiyadan danışarkən Manov B.Q. dövlətlərarası və ya birbaşa olmayan implementasiyanı fərqləndirir, bu zaman yalnız dövlətlər prosedurda istirak edə bilər və xüsusi və ya birbaşa implementasiyanı göstərir ki, yalnız fərdlər və ya onların qrupları beynəlxalq orqanlara müraciət edə bilərlər. Onun fikrincə implementasiya səlahiyyətinə malik olan orqanlar sırasına BMT-nin baş orqanları, eləcə də xüsusi yaradılan beynəlxalq orqanlar aiddir. Bu zaman baş orqanlar implementasiyanın ümumi məsələləri ilə, xüsusi orqanlar isə fərdi, özəl səviyyədə implementasiya ilə məşğul olurlar.

O, da şikayətlərə baxılmasının məhkəmə prosedurunu təkid edir, özü də belə prosedur dövlətdaxili məhkəmə sistemini xatırlatmalıdır. Burada qeyd etmək lazımdır ki, beynəlxalq mexanizmə daxili hüquq sistemi xüsusiyyəti vermək cəhdləri ümumiyyətlə, bir çox qərb müəllifləri üçün xasdır. Onların fikrincə beynəlxalq mexanizm daxili hüquq sisteminə nə qədər oxşasa, bir o qədər mükəmməlliyə yaxın olur. Bu zaman onlar insan hüquqları sahəsində beynəlxalq mexanizmlərin özünəməxsus xarakterini nəzərdən qaçırırlar [7, 31].

M.Moskovist belə hesab edir ki, zəruri olduqda implementasiya dövlət suverenliyinə toxunmalıdır. O, təkcə dövlət suverenliyinin məhdudlasdırılmasına deyil, həm də dövlətüstü orqanların yaradılmasına tərəfdar çıxır [13, 16].

Dövlətüstü orqanlar yaradılması ideyası insan hüquqları üzrə beynəlxalq əməkdaşlıq sahəsində xüsusilə təhlükəlidir, çünki o, müxtəlif inkişaf səviyyəli dövlətlərin belə əməkdaşlığının əsasını dagıdır. Bundan başqa hazırda universal dövlətüstü orqanlar qeyri-realdır və onlardan söhbət aparılması beynəlxalq birliyin diqqətini həqiqətən insan hüquqları sahəsində beynəlxalq əməkdaşlığın aktual problemlərindən yayındıra bilər [7, 31].

İnsan hüquqları sahəsində beynəlxalq mexanizmlərin hüquqi mahiyyətinin dərk edilməsi üçün beynəlxalq və milli tədbirlər arasında hansı nisbətin müəyyən edildiyini aydınlaşdırmaq vacibdir. Hazırda Qərb ədəbiyyatında implementasiya nəzəriyyəsində beynəlxalq tədbirlərə üstünlük verilən nöqteyi-nəzər yayılmışdır. Lakin bəzi Qərb müəllifləri beynəlxalq və dövlətdaxili tədbirlərin nisbətini başqa cür qiymətləndirirlər. Bu planda E.Şvebbin fikri maraq kəsb edir, o, belə hesab edir ki, «implementasiya» termini «o mənada texniki məna kəsb etmişdir ki, indi o, daxili hüquqa uyğun olaraq qəbul edilmiş tədbirlərə əlavə olaraq insan hüquqları haqda paktların yerinə yetirilməsinə beynəlxalq nəzarət üzrə tədbirlər» mənasını verir [14, 828], yəni belə halda tamamilə haqlı qeyd olunur ki, dövlətdaxili tədbirlər üstünlük təşkil edir.

W.Korey daxili və beynəlxalq tədbirlərin nisbəti barədə belə fikir söyləyir. İmplementasiyanın iki səviyyəsini fərqləndirərək, o, yazır ki, «fərdi hüquqların müdafiəsi üçün müraciət edilməsi mümkün olan beynəlxalq mexanizmlər mövcuddursa, daxili tədbirlərin səmərəliliyi artırıla bilər, və yaxud onlar daha çox həyat qabiliyyətli ola bilərlər [11, 5].

Xüsusi olaraq qeyd etmək lazımdır ki, implementasiya nəzəriyyəsinin fərdi şikayət (communication) kimi ünsürü praktiki olaraq bütün müəlliflər tərəfindən müdafiə olunur. Yaradılacaq istənilən beynəlxalq prosedur çərçivəsində zərərçəkən hər bir şəxsin həmin orqanlara bilavisitə petisiya və ya şikayət vermək hüququ olması zəruridir .

Bir sıra müəlliflər fərdlər qrupuna və qeyri-hökumət təşkilatlara şikayət vermək hüququnun verilməsində təkid edirlər. Bunu onunla izah edirlər ki, birincisi, fərd heç də həmişə şikayət göndərmək imkanına malik deyil, ikincisi, dövlətlər dövlətlərarası münasibətləri pisləşdirmək istəməyərək, basqa dövlətdə insan hüquqlarının pozulması barədə beynəlxalq orqanlara petisiya nadir hallarda verir. Lakin qeyd etməliyik ki, qeyri-hökumət təşkilatları bu hüquqdan sui-istifadə edə və bu zaman heç bir məsuliyyət daşımaya bilərlər.

İmplementasiya nəzəriyyəsinin digər ünsürü - insan hüquqlarına aid məsələlərin məhkəmə baxışı tərəfindən həll olunmuşdur. Onlardan bəziləri həm beynəlxalq cinayətlərə, həm də insan hüquqlarının digər pozuntularına münasibətdə yurisdiksiyası olan daimi beynəlxalq tribunalın yaradılması təklifini irəli sürürlər [5, 33]. Digərləri BMT Beynəlxalq məhkəməsinə insan hüquqları pozuntuları haqda işlərə baxmaq səlahiyyətinin verilməsini təklif edir. Bu zaman məhkəməyə iş vermək hüququ ayrı-ayrı fərdlərə, eləcə də dövlətlərə verilməlidir.

Praktikanın göstərdiyi kimi insan hüquqları sahəsində geniş səlahiyyətlərə

malik beynəlxalq məhkəmə yalnız regional səviyyədə yaradıla bilər. Belə məhkəmə nümunəsi Avropa insan hüquqları Konvensiyasında göstərilir, ancaq hətta bu konvensiya çərçivəsində də fərd məhkəmədə işə baxılmasının təşəbbüskarı ola bilmir. İnsan hüquqlarına dair geniş səlahiyyətli universal orqana (məhkəmə) isə hazırda ehtiyac yoxdur. Beynəlxalq cinayətlərə münasibətdə səlahiyyəti olan beynəlxalq cinayət məhkəməsinin yaradılması haqda məsələ isə hələlik ad hoc tribunallar qaydasında həll olunub [5, 33].

İnsan hüquqları haqda universal konvensiyalara uyğun olaraq yaradılmış orqanların məcburi qərar qəbul etmək səlahiyyəti yoxdur. Dövlətlərin münasibətlər sahəsində insan hüquqlarına dair məcburi qərarların çıxarılması bütün beynəlxalq birliyin maraqlarına toxunduqda və insan hüquqları ağır və kutləvi pozulduqda mümkündür. Dövləti konvensiyanın tək-tək pozuntusu olduqda, daxili qanunvericiliyin konvensiyalara bəzi uyğunsuzluqları, səlahiyyətli orqanlarının nöqsan və səhvlərinə dair konkret məsələnin həll etməyə məcbur etmək cəhdləri məqsədəuyğun deyil və yalnız dövlətlərarası münasibətlərin kəskinləşməsinə gətirib çıxara bilər. Dövlət özü bu nöqsanlarla məşğul olmaq və konvensiyaların daxili vasitələrlə yerinə yetirilməsini təmin etmək iqtidarındadır.

Azərbaycan qanunvericiliyinin Avropa Konvensiyası normalarına uyğunluğu probleminin təhlili ilk növbədə Azərbaycan Respublikası Konstitusiyasının təminatını dövlətin «ali məqsədi» elan etdiyi və bir-birindən ayırmadığı «insan hüquqları və azadlıqlarına» və «vətəndaşın hüquqları və azadlıqlarına» dair bəzi maddələrinin (m.12, m.24) mahiyyəti ilə əlaqədardır. Söhbət bu anlayışların ayrı-ayrılıqda və birtərəfli nəzərdən keçirilməsi təcrübəsindən imtina edilməsindən gedir. Bu da insan və vətəndaşların hüquqi statusu konsepsiyasının Azərbaycan qanunvericiliyi üçün məqbulluğundan xəbər verir və məlum olduğu kimi bu konsepsiyaya görə bütün ictimai proseslərin mərkəzində insan və vətəndaş, onların təminat verilmiş və qanunla müdafiə edilən azadlıqları və rifahı durur. Əsas xüsusiyyətlərdən biri də ondan ibarətdir ki, milli təsisatlar sahəsindəki iş prosesində BMT bu qənaətə gəlmişdir ki, dövlətlərin insan hüquqları və azadlıqları sahəsində beynəlxalq öhdəliklərini yerinə yetirmələri üçün bütün dövlətlər üçün zəruri mexanizm kimi vahid milli təsisat modeli yaratmaq mümkün deyildir və bunu tövsiyə etməyə ehtiyac yoxdur. Bundan əlavə, hər bir dövlət başqa dövlətlərin təcrübəsindən özü üçün səmərəli şəkildə istifadə edə bilər. Azərbaycan qanunvericiliyinin insan hüquqları və azadlıqları sahəsində beynəlxalq-hüquqi normalara və Avropa standartlarına uyğunlaşdırılmasının zirvə məqamı Azərbaycan Respublikasının Avropa Şurasına daxil olduğu və insan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasına qoşulduğu dövrə təsadüf edir. Bu mərhələnin keçilməsi hələ o demək deyildir ki, həmin norma və standartlar praktikada avtomatik tətbiq edilə bilər. Müasir suveren dövlətlərin əksəriyyətində qəbul edilmiş qaydaya görə həmin norma və standartların reallaşdırılması və onların tətbiqinə nəzarət edilməsi üçün müvafiq sistem yaradılmışdır. Azərbaycan Respublikasında insan hüquqları və azadlıqlarının müdafiəsi üçün nəzarət mexanizmləri sistemində

insan hüquqları üzrə müvəkkil (ombudsman) institutuna, eləcə də digər hüquq-müdafiə təşkilatlarına, o cümlədən qeyri-hökumət təşkilatlarına xüsusi əhəmiyyət verilir. Milli təsisatlar isə yerli mədəniyyətlərin, hüquq ənənələrinin və xüsusiyyətlərinin, eləcə də konkret dövlətdə mövcud olan siyasi təşkilatın xüsusiyyətlərinin nəzərə alınması ilə yaradılmalıdır.

İnsan hüquqları və azadlıqlarının həvəsləndirilməsi və onların müdafiəsi BMT-nin fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir. İnsan hüquqlarının pozulması hallarının araşdırılması və bu hüquqlara riayət olunması üzrə nəzarət normalarının müəyyən edilməsi istiqamətində müxtəlif müqavilələrə və beynəlxalq paktlara müvafiq yaradılmış mürəkkəb mexanizm əvvəlki kimi böyük əhəmiyyətə malikdir. İnsan hüquqları və azadlıqlarının müdafiəsinə yönəldilmiş konvensiyalar qarşılıqlı şəkildə bir-birini tamamlayan və nəzarət mexanizmlərinə əsaslanan vahid hüquqi vasitədir. İnsan hüquqlarının həvəsləndirilməsi və müdafiəsi ilə məşğul olan milli təsisatlarla tamamlanan bu mexanizmlər həmin sahədə dövlətləri və beynəlxalq birliyi narahat edən məsələləri həll etməyə qadirdir. Təbii ki, milli təsisatlar BMT-nin və ya Avropa Şurasının İnsan hüquqları üzrə orqanlar sistemini əvəz etməli deyil, yalnız öz tamamlayıcı funksiyalarını səmərəli şəkildə yerinə yetirməlidir.

Beynəlxalq mexanizmlər milli mexanizmləri əvəz edə bilməz, yalnız onları tamamlaya bilər. Vətəndaşların hüquqlarının faktiki realizəsi şərtləri və vasitələri də yalnız dövlətdaxili səviyyədə təmin oluna bilər. Beynəlxalq mexanizm isə fərdlərin hüquqlarına təminat verə bilmir, çünki o, fərdlərə yalnız dövlət vasitəsilə təsir edə bilir.

Müqavilələrin əksəriyyəti implementasiya məsələsini müvafiq qanunvericilik və digər zəruri tədbirlər görməli olan iştirakçı - dövlətlərin öhdəsinə buraxır. Buradan belə nəticəyə gəlirik ki, beynəlxalq mexanizmlər implementasiya orqanları deyil implementasiyaya nəzarət edən orqanlardır.

**ƏDƏBİYYAT**


1. Əliyev Ə.İ. İnsan hüquqları. Bakı: 2013
2. Əliyev Ə.İ. Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri. Bakı: 2007
3. Əliyev Ş.İ. İnsan hüquqları. Bakı: 2005
4. Гусейнов Л. Защищать права человека нужно посредством права, а не политики. Зеркало №5 (490), 1997, 8 февраля
5. Карташкин В.А. Международная безопасность и права человека. Санкт-Петербург, 1993
6. Карташкин В.А. Права человека и международная безопастность. 1988. ст.64
7. Манов Б.Г. ООН и содействие осуществлению соглашений о правах человека. М., 1986, с.31
8. Мюллерсон Р.А. Права человека: идеи, нормы, реальность. М.: 1991
9. Henkin L. Human rights and domestic jurisdiction. Hels, 1979
10. Humphrey J. No Instant Millenium. The International Law of Human Rights. N-Y. 1989
11. Korey W. The Key to human rights imlementation. Interm Conciliation, 1968. 570 p.
12. Lauterpacht H. International Law human rights. L., 1950

13. Mostowitz M. Human rights and World Order. N. Y. 1958
14. Shwelb E. Civil and political rights. The international measures of implementation. AJIL, 1968, vol. 62, № 4
15. Vasak K. Le droit intermational de droit de l'homme. P., 1978

## ИМПЛЕМЕНТАЦИЯ МЕЖДУНАРОДНЫХ СТАНДАРТОВ ПРАВ ЧЕЛОВЕКА: МЕЖДУНАРОДНЫЕ И НАЦИОНАЛЬНЫЕ МЕРОПРИЯТИЯ

**Н.Г.МЕХТИЕВ**

### РЕЗЮМЕ

В статье отмечается, что становление в праве принципа уважения прав человека и основных свобод связано с принятием целого комплекса договоров в области прав человека. Неотъемлемой составной частью многих договоров является принятие мер, воздействующих на их осуществление. В частности отмечается, что без мероприятий по осуществлению всесторонне разработанных договоров невозможно эффективное международное сотрудничество, направленное на выполнение принципа уважения прав человека и основных свобод.

Теоретический анализ мероприятий осуществления договоров в области прав человека необходим для определения позиций при объективной оценке и разработке конкретных международных процедур. Такой анализ делает возможным правильный подход к практической необходимости и эффективности рассматриваемых международных мероприятий.

**Ключевые слова:** имплементация прав человека, международные и национальные мероприятия в области прав человека, Декларация прав человека, Комитет по правам человека, международные стандарты прав человека, уважение прав человека, механизмы международного контроля в области прав человека и т.д.

## IMPLEMENTATION OF INTERNATIONAL HUMAN RIGHTS STANDARDS: INTERNATIONAL AND NATIONAL MEASURES

**N.H.MEHDIYEV**

### SUMMARY

It is noted in the article that, formation of the principle of respect to human rights and fundamental freedoms in law is due to the adoption of a complex of contracts in the field of human rights. An integral part of several contracts is measures affecting their implementation. It is specially noted that, effective international collaboration directed to fulfillment of the principle of respect to human rights and fundamental freedoms is impossible without comprehensively worked out contracts.

Theoretical analysis of taking measures to issue contracts in the field of human rights is important for determination of positions during objective assessment of specific international procedures and their working out. Such analysis makes possible the correct approach to practical necessity and effectiveness of international measures.

**Key words:** implementation of human rights, international and national measures in the field of human rights, Declaration of Human Rights, Human Rights Committee, international human rights standards, respect to human rights, international control mechanisms in the field of human rights etc.